Əsədullayev Ü.F.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.13-23
UOT: 343.36

# Məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyətinə dair xarici qanunvericiliyin təhlili

**Annotasiya:** Milli cinayət qanunvericiliyinin təkmilləşdirilməsi probleminin həlli təkcə onun formalaşmasının daxili tarixi təcrübəsinin nəzərə alınmasını deyil, həm də gələcək qanun yaradıcılığı prosesində nəzərə alına biləcək müsbət cəhətləri müəyyən etmək məqsədi daşıyan müasir xarici cinayət hüququnun öyrənilməsini nəzərdə tutur. Xarici hüququn öyrənilməsi hüquqşünas üçün yeni üfüqlər açır, ona öz ölkəsinin qanunlarını daha yaxşı bilməyə imkan verir, çünki bu, qanunun spesifik xüsusiyyətlərində xüsusilə aydın şəkildə özünü göstərir, digər sistemlərlə müqayisədə müəyyən edilir. Məhkəmə aktlarının icra edilməməsinə görə bir neçə dövlətin qanunvericiliyində həmin məsələnin təhlilinin aparılması zəruridir. Azərbaycan Respublikası qanunvericiliyində olmayan, lakin həmin ölkələrin qanunvericiliyində nəzərdə tutulmuş normaların Azərbaycan Respublikası Cinayət Məcəlləsində əks olunması ilə bağlı təkliflərin verilməsi mühüm elmi yenilik hesab oluna bilər.

**Açar sözlər:** məhkəmə hökmü; məhkəmə qərarı;qərardad; məhkəmə əmri; Cinayət Məcəlləsi; cinayət məsuliyyət.

Hər hansı dövlətin qanunvericilik sistemini təkmilləşdirmək üçün ilk olaraq, inkişaf etmiş və ona qonşu olan dövlətlərin qanunvericilik sistemini öyrənmək, müqayisələr aparmaq, zəruri məsələləri ön plana çıxarmaq, lazım olarsa, digər ölkələrin qanunvericiliyində olan, lakin yerli qanunvericilikdə olmayan müddəalarla bağlı təkliflər irəli sürmək lazımdır. Məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyətini tam dərindən öyrənmək üçün də digər dövlətlər tərəfindən qeyd olunan məsələni onların qanunvericilik sistemində necə təsbit edilməsini tədqiq etmək lazımdır.

Tədqiqat zamanı biz Rusiya Federasiyasının, Belarus Respublikasının, Gürcüstanın, Türkmənistanın, Qazaxıstan Respublikasının cinayət qanunvericiliyində təqdim olunan ədalət mühakiməsi əleyhinə cinayətlərə, o cümlədən məhkəmə aktının icra edilməməsinə dair normaları təhlil edəcəyik. Latviya Respublikası, Moldova Respublikası, Özbəkistan Respublikası, Ukrayna, habelə hüquq sistemləri Roman-German (kontinental) hüquq sisteminə aid olan Niderland, İspaniya, Polşa, Fransa, Almaniya, Danimarkanın cinayət qanunvericilikləri bir ailə hesab olunur və buna görə də onların qanunvericilik sistemi Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə yaxındır.

Keçmiş SSRİ-nin əksər ölkələrinin cinayət qanunları əsasən sovet dövrünün qanunvericiliyini “miras” etmiş, ondan bəhrələnmişdir.Nəzərdən keçirilən dövlətlərin Cinayət Məcəllələrində, bir qayda olaraq, məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyətinə dair normaları özündə əks etdirən “ədalət mühakiməsi əleyhinə”adlı cinayətlər fəsli vardır [13, s.26]. Yuxarıda

♦**Əsədullayev Ülvi Famil oğlu -** Bakı Dövlət Universitetinin “Cinayət hüququ və kriminologiya” kafedrasının “Cinayət hüququ və kriminologiya, cəza-icra hüququ” ixtisası üzrə doktorantı (Azərbaycan). E-mail: Ulvi.asadullayev@yahoo.com

deyilənlərə əsaslanaraq, tədqiq olunan məsələnin ümumi və spesifik tərəflərini müəyyən etməklə, bu ölkələrin cinayət qanunvericiliyini hərtərəfli təhlil etməyimiz mümkün görünür.

1996-cı il fevralın 17-də qəbul edilmiş Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlər üçün Model Cinayət Məcəlləsi (bundan sonra "Model Cinayət Məcəlləsi") kommersiya və digər təşkilatın işçisi tərəfindən qanuni qüvvəyə minmiş hökmün, qərarın, qərardadın və ya digər məhkəmə qərarının icra edilməməsinə, habelə onların icrasına mane olmağa görə məsuliyyəti özündə ehtiva edirdi. Əksər ölkələrdə məhkəmə qərarlarının icra edilməməsi cinayət hüquqi normasının yaranmasında MDB ölkələrinin qanunvericiləri tərəfindən Model Cinayət Məcəlləsinin 339-cu maddəsi əsas götürülmüşdür [7, s.758].

MDB iştirakçısı olan dövlətlərin Cinayət Məcəlləsində qeyd edilən cinayətin obyektiv tərəfi məhkəmə aktlarının icra edilməməsi və ya icrasına maneə törətmə kimi xarakterizə edilir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi, Belarusiya Respublikasının Cinayət Məcəlləsinin 423-cü maddəsi, Gürcüstan Respublikası Cinayət Məcəlləsinin 381-ci maddəsi, Qazaxıstan Respublikasının Cinayət Məcəlləsinin 362-ci maddəsi, Moldova Respublikası Cinayət Məcəlləsinin 320-ci maddəsində analoji normalar öz əksini tapmışdır [7, s.765].

Tədqiq edilən cinayət hüquq normasının subyektiv tərəfi müxtəlif üsullarla xarakterizə olunur. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Qazaxıstan Respublikasının Cinayət Məcəlləsində, habelə Rusiya Federasiyasının Cinayət Məcəlləsində əməli, yəni məhkəmə hökmünü, qərarını və digər aktının icra edilməməsinin məqsədli şəkildə qərəzli olaraq törədilməsi göstərilir. Moldova Respublikası Cinayət Məcəlləsinin 320-ci maddəsi, Özbəkistan Respublikasının Cinayət Məcəlləsinin 232-ci maddəsi, Ukrayna Cinayət Məcəlləsinin 382 və Latviya Respublikasının Cinayət Məcəlləsinin 296-cı maddəsi əməlin yalnız qəsdən təqsirli formada törədilməsini ifadə edir.

Bundan əlavə, Azərbaycan Respublikasının (mad. 306), Qazaxıstan Respublikasının (mad. 362) və Moldova Respublikasının (mad. 320) qanunvericiliyində müvafiq olaraq məhkəmə aktının icra edilməməsinin subyekti kimi - maddələrin 1-ci hissələrində - fiziki şəxs; 2-ci hissədə isə - vəzifəli şəxs və ya hakimiyyət nümayəndəsi, dövlət qulluqçusu, yerli özünüidarəetmə orqanının əməkdaşı, habelə dövlət qurumunun, kommersiya və ya digər təşkilatın nümayəndəsi nəzərdə tutulur.

Ukrayna Cinayət Məcəlləsi vəzifəli şəxsi əsas tərkibin subyekti kimi göstərərək (Ukrayna Cinayət Məcəlləsinin 382-ci maddənin 1-ci hissəsi) məhkəmə aktını icra edən vəzifəli şəxs tərəfindən qəsdən icra etməməyə və ya icrasına mane olmağa görə məsuliyyəti müəyyən edir. Məsul və ya xüsusilə məsul vəzifədə və ya bu cinayətə görə əvvəllər məhkum olunmuş şəxs və ya bu əməllər vətəndaşların qanunla qorunan hüquq və azadlıqlarına, dövlət və ya ictimai mənafelərə və ya hüquqi şəxslərin mənafelərinə əhəmiyyətli zərər vurulmaqla tördildikdə isə ağırlaşdırıcı tərkib hesab olunur. Bundan əlavə Ukrayna Cinayət Məcəlləsinin 382-ci maddəsinin 3-cü hissəsində MDB ölkələrinin heç bir Cinayət Məcəlləsində olmayan bir tərkib formalaşdırılmışdır: "Vəzifəli şəxs tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin qərarını qəsdən yerinə yetirməməsi". Bu əməl üç ildən səkkiz llədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qeyd edilən bu maddə MDB ölkələrinin heç birinin Cinayət Məcəlləsində təsbit edilməmişdir. Bu maddə MDB ölkələri üçün bir ilk hesab olunur [14].

Dövlətlərin, keçmiş SSRİ Respublikalarının cinayət qanunvericiliyində məhkəmə aktlarının icra edilməməsinə dair ümumi götürdükdə oxşar normalar olsa da, cinayət tərkibinin elementləri konstruktiv fərqlərə malikdir.

Məhkəmə aktının icra edilməməsinin bilavasitə obyekti məhkəmə aktlarının məcburi icrasını təmin edən ictimai münasibətlərdir.

MDB ölkələrinin Cinayət Məcəllələrində tədqiq olunan ictimai təhlükəli əməlin subyektləri aşağıdakılardır: vəzifəli şəxs, məsul və ya xüsusilə məsul vəzifə tutan vəzifəli şəxs, hakimiyyət nümayəndəsi, dövlət orqanının vəzifəli şəxsi, yerli özünüidarəetmə orqanı və ya hökumət, sahibkarlıq və ya digər təşkilatlarda idarəetmə səlahiyyətlərini həyata keçirən şəxs. Qeyd edək ki, bütün hallarda söhbət cinayətin xüsusi subyektindən gedir. Çünki qeyd edilən cinayətin subyekti məhkəmə aktlarının icrasını həyata keçirmək vəzifəsi həvalə edilmiş şəxs olmalıdır.

Məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyətini nəzərdə tutan normalara MDB üzvü olmayan dövlətlərin cinayət qanunvericiliyində də rast gəlinir.

Kontinental hüquq ailəsinə daxil olan dövlətlərin cinayət qanunvericiliyinin təhlilinə keçərək, bu qrupun normalarının xüsusiyyətlərini qeyd etmək lazımdır.

Roman-german hüquq sistemində hüquq norması dedikdə qanunverici tərəfindən tərtib edilmiş, hamı üçün məcburi olan, qeyri-müəyyən şəxslər dairəsi üçün nəzərdə tutulmuş ümumi davranış qaydaları nəzərdə tutulur. Anqlosakson presedent norması ilə müqayisədə bu normanın əsas xüsusiyyəti onun ümumiləşdirilmiş, mücərrəd xarakter daşımasıdır. Qanunverici normanı davranışın sosial modeli kimi konkret halları, davranış variantlarını sadalamadan icazə verilən həddi formalaşdırır [16, s.86].

Normaların - davranış modellərinin istifadəsi sosial münasibətlərə tez təsir göstərməyə, onları dəyişdirməyəimkan verir ki, bu da bu növ hüquqi tənzimləmənin qeyd-şərtsiz üstünlüyüdür. Roman-german hüquq sisteminə aid olan normalar sistemli-iyerarxik xarakter daşıyır, hüquqi qüvvəsi və sosial əhəmiyyəti baxımından müddəaların bir-biri ilə əlaqəli komplekslərini təşkil edir. Bu hal kontinental hüquq ailəsinin hüquqşünasları üçün mövcud qanunları axtarıb tətbiq etməyi xeyli asanlaşdırır. Bunu nəzərə alaraq, kontinental hüquq sisteminə daxil olan digər dövlətlərin Cinayət Məcəllələrinin analoji norması da araşdırılmalıdır.

Polşa Cinayət Məcəlləsində təhlil edilən cinayət hüquq normasının 16 elementini özündə əks etdirən "Ədalət əleyhinə cinayətlər" fəsli təsbit edilmişdir. Məsələn, zorakılıq və ya hədə-qorxu ilə məhkəmənin rəsmi fəaliyyətinə təsir göstərmək (maddə 232), yalançı şahidlik - məhkəmə prosesində yalan məlumat vermək və ya həqiqəti gizlətmə (maddə 233), məhkəmə prosesində ekspert, mütəxəssis və ya tərcüməçi tərəfindən yalan rəy vermə (maddə 233), cinayət törətməkdə şübhəli bilinən təqsirsiz şəxsin sübutlarının gizlədilməsi (maddə 236) və s.

Polşa cinayət hüququ ədaləti dar mənada nəzərdən keçirir. Həmin Cinayət Məcəlləsinə görəədalət mühakiməsi əleyhinə cinayətlər dedikdə yalnız məhkəmə sisteminin fəaliyyəti nəzərdə tutulur. Cinayətlərin bütün tərkib hissələri səciyyəsinə görə formal xarakter daşıyır və qanun cinayətin başa çatma anını hər hansı müəyyən ictimai təhlükəli nəticələrin başlanması ilə əlaqələndirmir [9].

Bir qayda olaraq, Polşa Cinayət Məcəlləsinin XXX fəslində (Ədalət mühakiməsi əleyhinə cinayətlər) qeyd edilən maddələrinsanksiyaları 3 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasını müəyyən edir, çünki bu cinayətlər az ağır və ya ağır cinayətlər kimi tövsif edilir.

Məhkəmə aktının icra edilməməsinə görə məsuliyyət məsələsinə gəldikdə Polşa Cinayət Məcəlləsinin 244-cü maddəsi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə, nəqliyyat vasitələsini idarə etmə hüququndan məhrumetmə ilə bağlı məhkəmənin qərarlarının, hökmlərinin icra edilməməsinə görə məsuliyyət nəzərdə tutulur. Digər

məhkəmə aktlarının icra edilməməsi Polşa Cinayət Məcəlləsinin 244-cü maddəsinin norması ilə əhatə olunmur.

Beləliklə, Azərbaycan Respublikasının cinayət qanunvericiliyi fikrimizcə, Polşanın Cinayət Məcəlləsindən daha çox inkişaf etmişdir, çünki o, istisnasız olaraq bütün məhkəmə hökmlərinin, məhkəmə qərarlarının və ya digər məhkəmə aktlarının məcburi icrası üçün cinayət hüquqi vasitələri təmin edir.

Almaniyanın Cinayət Məcəlləsində ədalət mühakiməsinə qarşı cinayətlər sistemi kifayət qədər genişdir və altı fəsildə yerləşir. Ədalət mühakiməsi əleyhinə cinayətlərə görə məsuliyyəti nəzərdə tutan normaların geniş spektri onların ayrılmaz bir sistem kimi qavranılmasını çətinləşdirir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Almaniya Cinayət Məcəlləsi ədalət mühakiməsinə qarşı bir sıra cinayətləri müəyyən edir. Məsələn, ekspertin məhkəmədə və ya dindirilmədə səlahiyyətli digər orqan qarşısında yalan rəy verməsi (maddə 153), "yalan ifadə vermək (maddə 154); cəzanın icrasına mane olma (maddə 258) və s.

Qeyd edilənlərdən əlavə deyə bilərik ki Almaniya Cinayət Məcəlləsində məhkəmə aktlarının icra edilməməsi ilə bağlı məsuliyyət müəyyən edən normaların olub-olmadığını aydınlaşdırmaq da bizim üçün əhəmiyyətlidir. Belə ki, Almaniya Federativ Respublikası Cinayət Məcəlləsinin 258-ci maddəsinə əsasən, məhkəmə tərəfindən müəyyən edilmiş qaydada təyin edilmiş cəzanın icrasına maneçilik törədən şəxslər cinayət məsuliyyətinə cəlb edilir. Lakin bu norma məhkəmə aktlarının icra edilməməsinə görə məsuliyyəti nəzərdə tutmur, əksinə, cəzanın qaçılmazlığı prinsipinin cinayət hüququ vasitələri ilə təmin olunduğunu göstərir. Deməli, Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində hal-hazırda tədqiq etdiyimiz cinayət hüquq norması yoxdur. Yəni, məhkəmə aktlarının icra edilməməsi ilə bağlı Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində hər hansısa bir maddə təsbit edilməmişdir [3].

Danimarka cinayət qanunvericiliyi ədalət mühakiməsi anlayışına təkcə ədliyyə orqanlarının deyil, digər dövlət orqanlarının da fəaliyyətini daxil edir. Üstəlik, cinayətlərin obyekti bu orqanların bütün fəaliyyəti deyil, yalnız etibarlı sübutların əldə edilməsi prosesidir. Bütün cinayətlər formal xarakter daşıyır. Cinayətlərin bəzi elementlərində zərər çəkmiş şəxsin xüsusi əlamətləri göstərilir (məsələn, vətəndaşın saxta sübutlarla ittihamı zamanı onun şərəfi, ləyaqəti və nüfuzu və s. (maddə 164).

Danimarka Cinayət Məcəlləsinə əsasən ədalət mühakiməsinə qarşı cinayətlərin törədilməsinə görə sanksiyalar kiçikdir, orta hesabla təxminən 2 ildir.

Qeyd edirik ki, Danimarka Cinayət Məcəlləsinin 148-ci maddəsi ilə müəyyən hüquqi aktların icrası ilə bağlı qanunla müəyyən edilmiş prosedura qəsdən və ya kobud ehtiyatsızlıq nəticəsində əməl edilməməsinə görə məsuliyyət müəyyən edilir. Həmin əməllərin törədilməsinə görə səlahiyyətlərinə məhkəmə aktlarının icra edilməsi ilə bağlı dövlətin cəzalandırma funksiyasını həyata keçirmək daxil olan şəxslər cəzalandırılır.

Danimarka cinayət qanununda "müəyyən hüquqi aktlara" əməl edilməməsinə görə cinayət məsuliyyəti haqqında müddəa vardır. Qeyd edək ki, normanın bu hüquqi strukturu kifayət qədər mükəmməl deyildir. Maddənin tərkibini təhlil edərkən sual yaranır ki, hansı məhkəmə aktları "müəyyən hüquqi aktlar" kateqoriyasına daxildir. Maddənin bu cür ifadəsi onun praktikada tətbiqini çətinləşdirir [5].

Hollandiya Cinayət Məcəlləsində ədalət mühakiməsinin həyata keçirilməsi qaydasına qarşı cinayətlər üç hissəyə bölünür: VIII bölmə "Dövlət hakimiyyəti əleyhinə cinayətlər", IX bölmə "Yalan şahidlik" və XXVIII bölmə "Vəzifə səlahiyyətlərindən sui-istifadə ilə bağlı cinayətlər".

Hollandiya Cinayət Məcəlləsinin ən mühüm xüsusiyyətlərindən biri odur ki, burada cinayətin obyekti kimi ədalət mühakiməsinin maraqları xüsusi olaraq qeyd olunmur.

Hollandiya cinayət qanunvericiliyi ilə ədalət mühakiməsi anlayışına təkcə məhkəmə sistemini deyil, həm də cinayət əməllərinin araşdırılmasının həvalə edilmiş səlahiyyətli nümayəndələrin fəaliyyətləri də əhatə edilir. Hollandiya Cinayət Məcəlləsinin 207a, 444, 445-ci maddələrindəqeyd olunmuş cinayətlərin obyektləri yalnız məhkəmə və ya digər səlahiyyətli dövlət orqanlarının onlara həvalə edilmiş funksiyaların həyata keçirilməsi ilə bağlı fəaliyyətidir.

Qəsd edilən münasibətlərin obyektindən asılı olaraq ədalət mühakiməsinə qarşı cinayətlər 4 qrupa bölünə bilər: məhkəməyə və ya cinayətlərin araşdırılması həvalə edilmiş hüquq-mühafizə fəaliyyətinə qarşı cinayətlər (CM-nin 184, 190, 364-cü maddələri); iş üzrə cinayət təqibi qaydasına qarşı cinayətlər (CM-nin 185-ci maddəsi); etibarlı sübutların əldə edilməsi prosedurlarına qarşı cinayətlər (CM-nin 188, 189, 192, 207, 207a, 444, 445-ci maddələri); azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi qaydasına qarşı cinayətlər (CM-nin 191-ci maddəsi).

Hollandiya Cinayət Məcəlləsində 355-ci maddənin 4-cü hissəsində qeyd olunur ki, konstitusiyanın və ya digər qanunların və ya Ümumi İnzibati Sərəncamların müddəalarına qəsdən əməl etməyən nazirliklərin rəhbərləri onların səlahiyyətləri, vəzifə funksiyalarına aid olan məsələləri həll etməli olduğu hallarda, bunu etmirlərsə cinayət məsuliyyətinə cəlb olunurlar. Eyni zamanda qeyd etmək lazımdır ki, burada söhbət ədalətin mənafeyindən yox, icra hakimiyyətinin maraqlarının qorunmasından gedir. Bu da təhlil etdiyimiz cinayətlərlə bağlı bir ilk hesab oluna bilər. Çünki digər ölkələrin cinayət məcəllələrində icra hakimiyyətinin qəbul etdiyi normativ hüquqi aktların icra edilməməsi ilə bağlı heç bir müddəa nəzərdə tutulmamışdır [10].

Qeyd olunanlardan əlavə bildirə bilərik ki, Hollandiya cinayət qanunvericiliyində birbaşa məhkəmə aktının icra edilməməsinə ilə bağlı cinayət məsuliyyətini müəyyən edən heç bir norma yoxdur.

Fransa Cinayət Məcəlləsi müxtəlif fəsillərdə ədalət mühakiməsinə qarşı cinayətlərə görə məsuliyyəti nəzərdə tutan qaydaları ehtiva edir. Qeyd edilən normalar “Dövlət hakimiyyətinə qəsdlər haqqında”, "Vəzifəli şəxslər tərəfindən dövlət idarəetmə sisteminə edilmiş qəsdlər haqqında", "Məhkəmənin fəaliyyətinə qəsdlər haqqında" adlı fəsillərdə öz əksini tapmışdır.

2-ci fəslin “Vəzifə səlahiyyətlərindən sui-istifadə haqqında” adlı 2-ci bölməsində istintaq və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı vəzifəli şəxslər tərəfindən törədilə bilən aşağıdakı cinayət əməlləri sadalanır: vətəndaşın azadlığına qarşı qəsdlərin törədilməsinə qanunsuz göstəriş vermə (maddə 432-4); azadlıqdan məhrum etmə ilə bağlı cəzaları icra etməmə və ya icrasına mane olma və s.

Ədliyyə orqanlarının vəzifəli şəxsləri tərəfindən törədilmiş bütün digər cinayətlər “Dövlət orqanlarına qarşı yönəlmiş səlahiyyətlərdən sui-istifadə haqqında” 2-ci fəslin 1-ci bölməsində vəzifəli şəxslər tərəfindən törədilən cinayət əməlləri çərçivəsində nəzərdən keçirilir.

Tədqiqatın mövzusu ilə əlaqədar olaraq bizi ən çox maraqlandıran məhkəmə aktlarının icra edilməməməsi ilə bağlı normaların tədqiqidir. Nəzərdən keçirilən bölmədə məhkəmə aktlarının icra olunmaması ilə bağlı konkret olaraq cinayət hüquq norması təsbit edilməmişdir.

Belə ki, Fransa Cinayət Məcəlləsində qanuni qüvvəyə minmiş hər hansı məhkəmə aktının məcburi icrasının təmin edilməsi ilə bağlı yalnız xüsusi hökmlərin icra edilməməsinə görə cinayət məsuliyyətini nəzərdə tutan normalar vardır. Bundan əlavə, normada bu aktların icra edilməsi ilə bağlı vəzifələri müəyyən edilən subyektlərin adları çəkilir. Lakin Fransa Cinayət Məcəlləsində

konkret olaraq məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyəti və cəzanın müəyyən edildiyini deyə bilmərik [6].

İspaniya Cinayət Məcəlləsində "Məhkəmə sisteminə qarşı cinayətlər" adlı XX təsbit edilmişdir. Bu bölmə çərçivəsində ədalət mühakiməsi əleyhinə olan bütün cinayətlər birləşdirilmiş, konkret cinayətin xarakterindən (məzmunundan) və törədilmə predmetindən asılı olaraq fəsillər üzrə sistemləşdirilmişdir. Qanunverici orqanın sözügedən əməllərin Cinayət Məcəlləsində təqdim edilməsinə bu cür yanaşması ağlabatandır, sistemin bütövlükdə qavranılmasına imkan verir və hüquq-mühafizə orqanlarının mövqeyinin təyin edilməsini asanlaşdırır.

Qeyd edilən bölmənin 1-ci fəslində "Vəzifədən sui-istifadə haqqında" ədliyyə orqanlarının vəzifəli şəxsləri tərəfindən məhkəmə hakimiyyətinin həyata keçirilməsinə qarşı edilən qəsdlər sadalanır. Bunlara hakim tərəfindən qanunsuz hökm və ya qərarın qəsdən elan edilməsi (maddə 446), kobud ehtiyatsızlıq və ya məlumatsızlıq üzündən hakim tərəfindən açıq-aşkar qanunsuz hökm və ya qərarın çıxarılması (maddə 446, 447) və s. kimi maddələri misal kimi göstərə bilərik.

Bölmənin 2-ci fəslində göstərilən 450-ci maddə cinayətlərin törədilməsinin qarşısının alınması və cinayət təqibi öhdəliyinin yerinə yetirilməməsinə görə cinayət məsuliyyətini müəyyən edir.

"Cəzanın çəkilməsi rejiminin pozulması haqqında" bölmənin sonuncu fəslində cəzanı, təhlükəsizlik tədbirini, azadlıqdan məhrum etməni, qətimkan tədbirini pozan şəxslərin cinayət məsuliyyətinə dair qaydalar (maddə 468) yer almışdır.

İspaniya Cinayət Məcəlləsinin 508-ci maddəsi səlahiyyətli məhkəmə orqanı tərəfindən verilmiş qərarın icrasına mane olan vəzifəli şəxsin və ya dövlət qulluqçusunun məsuliyyətini müəyyən edir.

Beləliklə, İspaniya cinayət qanunvericiliyi ədalət mühakiməsinə qarşı cinayətlərin kifayət qədər mütərəqqi sistemini ehtiva edir. Bundan əlavə, deyə bilərik ki, məhkəmə aktının icrası cinayət-hüquqi qadağa ilə təmin edilir [11].

Ədalət mühakiməsinin mənafeyini qoruyan, o cümlədən məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyəti müəyyən edən normalar Cinayət Məcəlləsində öz əksini tapmışdır. Lakin İspaniya Cinayət Məcəlləsində digər ölkələrin qanunvericilik sistemindən fərqli olaraq məhkəmə aktlarının icra edilməməsinə nisbətdə məhkəmə aktlarının icrasına mane olma daha çox qabardılır və ön plana çəkilir.

Çin Xalq Respublikasının Cinayət Məcəlləsində Ədalət mühakiməsi əleyhinə cinayətlər adlı 6-cı fəslin "Məhkəmənin fəaliyyəti əleyhinə cinayətlər" adlı 2-ci yarımfəsli müəyyən edilmişdir. Bu yarımfəsil 13 cinayətdən ibarətdir.

Çin cinayət hüququ, AzərbaycanRespublikasının cinayət hüququ kimi, ədaləti geniş mənada nəzərdən keçirir, bununla təkcə məhkəmə sisteminin deyil, həm də ədalət mühakiməsi ilə məşğul olan digər şəxslərin fəaliyyətini nəzərdə tutur. Məzmununa görə, məhkəmənin fəaliyyətinə qarşı bütün cinayətlər formal xarakter daşıyır.

Qeyd edək ki, Çin Xalq Respublikasının Cinayət Məcəlləsinin 313-cü maddəsində məhkəmə tərəfindən qəbul edilmiş qərarın, hökmün və digər aktınicra edilməməsinə görə məsuliyyət nəzərdə tutan müddəalar mövcuddur [4].

Yaponiya Cinayət Məcəlləsində ədliyyə orqanlarının vəzifəli şəxsləri tərəfindən törədilən ədalət mühakiməsinə qarşı cinayətlər fərqləndirilir. Lakin Yaponiya Cinayət Məcəlləsində məhkəmə aktının icra edilməməsinə görə cinayət məsuliyyəti haqqında müddəa yoxdur [15].

Beləliklə, ədalət mühakiməsi əleyhinə cinayətlərə görə məsuliyyəti nəzərdə tutan xarici cinayət qanunvericiliyinin təhlili bir çox cəhətdən ədalət mühakiməsinin həyata keçirilməsində ictimai münasibətlərə qəsdlərin oxşar olduğu qənaətinə gəlməyə imkan verir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin ədalət mühakiməsinə qarşı cinayətlərin strukturuna ən çox oxşar olanlar keçmiş SSRİ ölkələrinin Cinayət Məcəllələridir. Əksər hallarda kiçik konstruktiv fərqlərlə onlar məhkəmə aktının icra edilməməsinə görə məsuliyyət nəzərdə tuturlar.

Xarici dövlətlərin cinayət qanunvericiliyində ədalət mühakiməsinə qarşı cinayətlər müxtəlif fəsillərdə və hətta bölmələrdə (Almaniya, Hollandiya, Fransa, Yaponiya) yer alır və buna görə də həmin cinayətlərə görə məsuliyyəti nəzərdə tutan normaların məqsədi məsələsini həll etmək çətindir. Üstəliknəzər salınan Cinayət Məcəllələrinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, ədalət mühakiməsini həyata keçirən orqanlar və icra hakimiyyəti orqanlarının müdafiə obyektləri qarışıqdır (Hollandiya, Almaniya).

Məhkəmə aktının icra edilməməsinə görə məsuliyyət müəyyən edən normaya gəlincə, aşağıdakıları qeyd edə bilərik:

İspaniya, Polşa, Danimarka, Çin Xalq Respublikasının Cinayət Məcəllələrində məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Qeyd edilən Cinayət Məcəllələrində cinayətin obyektiv tərəfində fərqlər müşahidə olunur. Əməlin subyektləri də fərqli şəkildə müəyyən edilir.

Almaniya, Yaponiya, Hollandiyanın Cinayət Məcəllələrində ədalət mühakiməsinə qarşı cinayətlərin kifayət qədər inkişaf etmiş sisteminə baxmayaraq, məhkəmə aktlarının icra edilməməsinə qarşı cinayət məsuliyyətini müəyyən edən normalar təsbit edilməmişdir.

Hesab edirik ki, qəbul edilmiş məhkəmə aktlarının icrasının hamılıqla məcburi olması prinsipi məhkəmə aktlarının icra edilməməsinə görə məsuliyyət normaları ilə dəstəklənməlidir, çünki əks halda ədalət öz sosial rolunu itirir, insan hüquqları və hüquq-mühafizə funksiyalarını yerinə yetirmir. Bu normaların olmaması mövcud cinayət hüququ qanunvericiliyinin mükəmməl olmadığını göstərir.

Yuxarıda qeyd edilənlərə əsasən, ümid edirik ki, sonrakı inkişaf prosesində hazırda tədqiq olunan normanı ehtiva etməyən dövlətlərin Cinayət Məcəllələri istisnasız olaraq, müəyyən edilmiş qaydada qəbul edilmiş bütün məhkəmə aktlarının icra edilməməsinə görə cinayət məsuliyyəti müəyyən edəcək və həmin normalar sadəcə yazılı maddə olaraq deyil, müvafiq orqanlar tərəfindən daima istinad olunacaq rəhbər normaya çevriləcəkdir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikası Konstitusiyası [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi [Elektron resurs]. URL:https://www.e-qanun.az/framework/46947
3. Almaniya Federativ Respublikası Cinayət Məcəlləsi[Elektron resurs]. URL: http://rawunsch.de/images/Ugolovnyiyi_Kodeks.pdf
4. Çin Xalq Respublikası Cinayət Məcəlləsi [Elektron resurs]. URL: http://ru.chinaembassy.gov.cn/rus/zfhz/zgflyd/201601/t20160111_3149373.htm
5. Danimarka Cinayət Məcəlləsi [Elektron resurs]. URL: http://lawlibrary.ru/izdanie36902.html

6. Fransa Respublikası Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://istina.msu.ru/publications/book/3634477/

7. MDB-nin üzv dövlətləri üçün Model Cinayət Məcəlləsi (1996-cı il). - Bakı: Hüquq Yayın Evi, 2014.- 1182.

8. Naumov A.V. Rusiya cinayət hüququ: Ümumi hissə. Mühazirə kursu.- Bakı: Qanun, 1998.- 636 s.

9. Polşa Respublikasının Cinayət Məcəlləsi[Elektron resurs]. URL: https://advokatvpolshe.ru/ugolovnoe-pravo-ugolovnyj-kodeks-respubliki-polsha/

10. Hollandiya Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://search.rsl.ru/ru/record/01000715592

11. İspaniya Cinayət Məcəlləsi[Elektron resurs]. URL: http://artlibrary2007.narod.ru/kodeks/ispanii_uk.doc

12. Qazaxıstan Respublikasının Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://online.zakon. kz/Document/?doc_id=31575252

13. Qəhrəmanov V. Sovet cinayət hüququ: ümumi hissə: dərs vəsaiti.- Bakı: Maarif, 1967. - 215 s.

14. Ukrayna Respublikasının Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://online.zakon.kz/Document/?doc_id=30418109

15. Yaponiya Cinayət Məcəlləsi[Elektron resurs]. URL: https://constitutions.ru/?p=407

16. Векленко С.В. Диалектика и вопросы вины в уголовном праве: монография. - Омск: Омская академия МВД России, 2003. 84 с.

17. Грошевой Ю.М. Сущность судебных решений в советском уголовном процессе. - Харьков: Харьк. унт, 1979. - 144 с.

18. Гурвич М.А. Судебное решение. Теоретические проблемы. - М.: Юрид. литература, 1976. - 176 с.

**Asadullayev U.F.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.13-23**
**UDC: 343.36**

## Analysis of foreign legislation on criminal liability for non-execution of court acts

**Abstract:** The solution to the problem of improving the national criminal legislation involves not only taking into account the internal historical experience of its formation, but also the study of modern foreign criminal law, which aims to determine the positive aspects that can be taken into account in the future law-making process.The study of foreign law opens up new horizons for a lawyer, it allows him to better know the laws of his country, because the specific features of this law are especially clear, defined in comparison with other systems.Due to non-execution of judicial acts, it is necessary to analyze this issue in the legislation of several states.Providing proposals regarding the reflection of norms in the Criminal Code of the Republic of Azerbaijan, which are not

♦**Asadullayev Ulvi Famil oglu** - Doctoral student of Baku State University “Criminal law and criminology” Department, majoring in “Criminal law and criminology, penal-executive law” (Azerbaijan). E-mail: Ulvi.asadullayev@yahoo.com

in the legislation of the Republic of Azerbaijan, but are provided for in the legislation of those countries, can be considered an important scientific innovation.

**Keywords:** Court verdict; court decision; decision; court order; Criminal Code; criminal responsibility.

**References**

1. Constitution of the Republic of Azerbaijan. Avaialbe at: https://www.e-qanun.az/framework/897(in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://www.e-qanun.az/framework/46947 (in Azerbaijani).
3. Criminal Code of the Federal Republic of Germany. Available at: http://rawunsch.de/images/Ugolovnyiyi_Kodeks.pdf (in Russian).
4. Criminal Code of Republic of China. Available at: http://ru.chinaembassy.gov.cn/rus/zfhz/zgflyd/201601/t20160111_3149373.htm
5. Criminal Code of the Republic of Denmark. Available at: http://lawlibrary.ru/izdanie36902.html (in Russian).
6. Criminal Code of the French Republic. Available at: https://istina.msu.ru/publications/book/3634477/ (in Russian).
7. Model Criminal Code for CIS member states (1996). Baku: Law House Publ., 2014, 1182 p. (in Russain).
8. Naumov A.V. Russian criminal law: General part. Lecture course, Baku: Qanun, 1998, 636 p. (in Russian).
9. Criminal Code of the Republic of Poland. Available at: https://advokatvpolshe.ru/ugolovnoe-pravo-ugolovnyj-kodeks-respubliki-polsha/ (in Russian).
10. Criminal Code of the Republic of the Netherlands. Available at: https://search.rsl.ru/ru/record/01000715592 (in Russian).
11. Criminal Code of the Republic of Spain. Available at: http://artlibrary2007.narod.ru/kodeks/ispanii_uk.doc (in Russian).
12. Criminal Code of the Republic of Kazakhstan. Available at: https://online.zakon.kz/Document/?doc_id=31575252 (in Russian).
13. Kahramanov V. Soviet criminal law: general part: textbook. Baku: Maarif Publ., 1967, 215 p. (in Azerbaijani).
14. Criminal Code of the Republic of Ukraine. Available at: ;https://online.zakon.kz/Document/?doc_id=30418109 (in Russian).
15. Criminal Code of the Republic of Japan. Available at: https://constitutions.ru/?p=407 (in Russian).
16. Veklenko C.B. Dialectics and issues of guilt in criminal law: Monograph.Omsk: Omsk Academy of the Ministry of Internal Affairs of Russia Publ., 2003. 84 p. (in Russian).
17. Groshevoi Yu.M. The essence of judicial decisions in the Soviet criminal process. Kharkov: Kharkov. Unt. Publ., 1979. 144 p. (in Russian).
18. Gurvich M.A. Judgment. Theoretical problems. Moscow, Yurid. Literature Publ., 1976. 176 p. (in Russian).

**Асадуллаев У.Ф.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.71.13-23**
**УДК: 343.36**

## Анализ зарубежного законодательства об уголовной ответственности за неисполнение судебных актов

**Аннотация:** Решение проблемы совершенствования отечественного уголовного законодательства предполагает не только учет внутриисторического опыта его формирования, но и изучение современного зарубежного уголовного права, целью которого является определение положительных моментов, которые могут быть учтены в Будущий законотворческий процесс.Изучение иностранного права открывает перед юристом новые горизонты, позволяет ему лучше узнать законы своей страны, потому что особенности этого права особенно четко выражены, определены в сравнении с другими системами.В связи с неисполнением судебных актов необходимо проанализировать данный вопрос в законодательстве нескольких государств.Важным научным новшеством можно считать внесение предложений по отражению в Уголовном кодексе Азербайджанской Республики норм, которых нет в законодательстве Азербайджанской Республики, но предусмотрены в законодательстве этих стран.

**Ключевые слова:** приговор суда; решение суда; постановление; судебный приказ; Уголовный Кодекс; уголовная ответственность.

## Библиография

1. Конституция Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://www.e-qanun.az/framework/897 (на азерб. яз).
2. Уголовный кодекс Азербайджанской Республики. [Электронный ресурс]. URL: https://www.e-qanun.az/framework/46947 (на азерб.яз.).
3. Уголовный кодекс Федеративной Республики Германии. [Электронный ресурс]. URL: http://rawunsch.de/images/Ugolovnyiyi_Kodeks.pdf
4. Уголовный кодекс Китайской Народной Республики.[Электронный ресурс]. URL: http://ru.chinaembassy.gov.cn/rus/zfhz/zgflyd/201601/t20160111_3149373.htm
5. Уголовный кодекс Датской Республики [Электронный ресурс]. URL: http://lawlibrary.ru/izdanie36902.html
6. Уголовный кодекс Французской Республики [Электронный ресурс]. URL: https://istina.msu.ru/publications/book/3634477/
7. Модельный Уголовный кодекс государств-участников СНГ (1996 г.). - Баку: Юридический дом, 2014. - 1182 с.
8. Наумов А.В. Российское уголовное право: Общая часть. Курс лекций.- Баку: Ганун, 1998.- 636 с.

♦**Асадуллаев Ульви Фамиль оглы** - докторант кафедры «Уголовное право и криминология» по специальности «Уголовное право и криминология, уголовно-исполнительное право» Бакинского Государственного Университета (Азербайджан). E-mail: Ulvi.asadullayev@yahoo.com

9. Уголовный кодекс Республики Польша. [Электронный ресурс]. URL: https://advokatvpolshe.ru/ugolovnoe-pravo-ugolovnyj-kodeks-respubliki-polsha/

10. Уголовный кодекс Республики Нидерландов [Электронный ресурс]. URL: https://search.rsl.ru/ru/record/01000715592

11. Уголовный кодекс Республики Испания [Электронный ресурс]. URL: http://artlibrary2007.narod.ru/kodeks/ispanii_uk.doc

12. Уголовный кодекс Республики Казахстан [Электронный ресурс]. URL: https://online.zakon.kz/Document/?doc_id=31575252

13. Кахраманов В. Советское уголовное право: Общая часть: учебник.- Баку: Маариф, 1967.- 215 с. (на азерб.яз.)

14. Уголовный кодекс Республики Украина [Электронный ресурс]. URL: https://online.zakon.kz/Document/?doc_id=30418109

15. Уголовный кодекс Японской Республики [Электронный ресурс]. URL: https://constitutions.ru/?p=407

16. Векленко С.В. Диалектика и вопросы вины в уголовном праве: монография. - Омск: Омская академия МВД России, 2003. - 84 с.

17. Грошевой Ю.М. Сущность судебных решений в советском уголовном процессе. - Харьков: Харьк. унт, 1979. - 144 с.

18. Гурвич М.А. Судебное решение. Теоретические проблемы. - М.: Юрид. литература, 1976. - 176 с.